*UOT 37.01*

***Elvin Səfər oğlu Səmədov,***
*AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun fəlsəfə doktoru proqramı üzrə doktorantı,*
*Lerik rayonu, Piran kənd tam orta məktəbinin direktoru*
*https://orcid.org/my-orcid?orcid=0009-0003-9902-4749*
*E-mail: esmes_tx@list.ru.*

***Əbdüləzim Tarix oğlu Talıbi***
*Lerik rayonu, Piran kənd tam orta məktəbinin direktor müavini*
*https://orcid.org/0009-0006-4718-6684*
*abdulazimtalibi@gmail.com*
*https://doi.org/10.69682/arti.2026.93(3).44-50*

# TƏHSİLDƏ MƏQSƏD VƏ METODİKANIN ƏHƏMİYYƏTİ

***Elvin Safar Samadov***
*doctoral student at the Nasimi Institute of Linguistics of the Azerbaijan National Academy of sciences, director of full secondary school, of the Piran village of Lerik district*

***Abdulazim Tarikh Talibi***
*deputy direktor at full secondary school, of the Piran village of Lerik ddistrict*

# THE IMPORTANCE OF GOALS AND METHODOLOGICAL APPROACHES IN EDUCATIONT

***Эльвин Сафар оглы Самедов***
*докторант по программе доктора философии Института Языкознания имени Насими Национальной Академии Наук Азербайджана,*
*директор Пиранской полной средней школы Лерикского района*

***Абдулазим Тарих оглы Талыби***
*заместитель директора Пиранской полной средней школы Лерикского района*

# ВАЖНОСТЬ ЦЕЛЕЙ И МЕТОДИКИ В ОБРАЗОВАНИИ

**Xülasə.** Məqalədə təhsilin məqsədlərinin aydınlaşdırılması araşdırılmış və onlar bir neçə qrupa bölünmüşdür. İlk olaraq təhsildə məqsəd məsələsi problem olaraq qoyulmuş, sonra isə bu anlayışa müxtəlif tərəflərdən baxış edilmişdir. Belə ki, təhsildə məqsəd vacib və əhəmiyyətli bir yanaşma olduğundan məqalədə bunlar tədqiqata cəlb edilərək onların üç yerə bölünməsi nəticəsinə gəlinmişdir. Burada dövlət, ictimai fə fərdi yanaşma baxımından təhsilin məqsədi təhlil edilmiş və hər bir yanaşmanın özünəxas cəhətləri və tələbləri, eləcə də faydalılığı müəyyənləşdirilmişdir. Məqalədə təhsilin məqsədinin düzgün təyin edilməsi onun faydalılığına edə biləcəyi müsbət təsir məsələsi xüsusi olaraq önə çəkilmişdir.

Məqalədə digər bir məsələ, "Metodika" məsələsi də tədqiqata cəlb edilmiş və ümumi yanaşma ilə təhlil edilmiş, xüsusən metodlar çoxluğu fikri önə çəkilərək onun faydalılığı təhlil edilmişdir. Bununla bərabər, metodlar çoxluğunda tədris prosesi zamanı sərbəstliyin təmin edilməsinin müsbət tərəfləri müzakirə edilmişdir. Həmçinin önəmli bir fikir olan təhsilin suni mühitdən metodların köməyi ilə təbii formaya gətirilərək daha çox təhsilalanlar üçün faydalı olması fikri təhlil edilmişdir. Bunların fonunda məqalədə təhsilin cəmiyyət, dövlət və fərd üçün daha uğurlu ola biləcəyi fikri əsaslandırılaraq qeyd olunmuşdur.
***Açar sözlər:*** *təhsil, təhsildə məqsəd, dövlət məqsədi, cəmiyyətin təhsildə məqsədi, təhsilalan məqsədi, təhsilə fəlsəfi yanaşma, metodika, metod, təbii tədris prosesi, estetik zövq, təhsilin faydalılığı, təhsilin dəyəri*

**Abstract.** This article explores the objectives of education and categorizes them into several groups. The issue of educational purpose is initially presented as a problem and subsequently analyzed from multiple

perspectives. Recognizing the significance of educational goals, the study classifies them into three main categories: state, societal, and individual objectives. Each perspective is examined in terms of its distinct characteristics, requirements, and practical implications. The article emphasizes that a clear and accurate definition of educational goals positively influences the effectiveness of the learning process.

The study also addresses the topic of methodology, analyzing it from a general perspective. The multiplicity of teaching methods is highlighted, and their effectiveness is evaluated. The benefits of ensuring flexibility in the teaching process within this methodological diversity are discussed. Furthermore, the article examines the principle of aligning teaching methods with a natural learning process rather than an artificial environment, enhancing their utility for learners. Overall, the findings suggest that education can achieve greater success when aligned with the needs of society, the state, and the individual.

***Keywords:*** *Education, goal in education, state objective, society's objective in education, learner's objective, philosophical approach to education, methodology, method, natural teaching process, aesthetic plasure, usefulness of education, value of education*

**Аннотация.** В статье рассматривается вопрос уточнения целей образования и предлагается их классификация по нескольким направлениям. Первоначально проблема цели в образовании ставится как самостоятельный научный вопрос, затем это понятие анализируется с разных точек зрения. Поскольку цель в системе образования является важным и значимым ориентиром, в работе она подробно исследуется, и в результате автор приходит к выводу о целесообразности выделения трёх основных групп. Цель образования анализируется с позиции государства, общества и личности. Для каждого подхода определяются его характерные особенности, требования и практическая польза.

Особое внимание в статье уделяется тому, что правильное определение целей образования напрямую влияет на его эффективность и результативность. Отдельно в статье рассматривается и вопрос методики. Он анализируется в общем теоретическом контексте, при этом подчёркивается идея многообразия методов и их практическая ценность. Также обсуждаются положительные стороны обеспечения определённой свободы в учебном процессе при использовании различных методов обучения. Кроме того, выдвигается важная мысль о том, что с помощью правильно подобранных методов можно приблизить искусственно организованную образовательную среду к более естественной форме, что делает процесс обучения более полезным и продуктивным для обучающихся. в целом в статье обосновывается идея о том, что при грамотном определении целей и выборе методик образование может быть более успешным и эффективным как для общества и государства, так и для личности.

***Ключевые слова:*** *образование, цель в образовании, государственная цель, цель общества в образовании, цель обучающегося, философский подход к образованию, методика, метод, естественный процесс обучения, эстетический вкус, полезность образования, ценность образования*

Təhsilin məqsədi zaman-zaman filosofları, pedaqoqları düşündürmüş və bunun üçün fikirlər bildirmişlər. İlk olaraq qeyd etmək lazımdır ki, təhsilin məqsədinin düzgün müəyyənləşdirilməsi üçün təhsil fəlsəfəsini, müdrikliyini anlamaq lazımdır. Əks təqdirdə təhsilin məqsədini müəyyənləşdirmək uyğun olmaya da bilər və fərqli, bir-birinə zidd məqsədlərin ortaya çıxmasına gətirib çı-xaracaq. Sual edilə bilər: "Niyə fəlsəfi yanaşma?". Çünki fəlsəfə özü "müdrik yanaşması", "müdrikliyə sevgi" olduğundan və bəşəri dəyər və ideyaları birləşdirdiyindən fəlsəfi baxışın olması vacibdir. "Fəlsəfə "müdriklik sevgisi" deməkdir. Bu, kainatın və insan həyatının mahiyyətini və mənasını sistematik şəkildə araşdırmaq yolu ilə xüsusi bir hikmət axtarışıdır. Təhsil fəlsəfəsi isə dünyada təhsil düşüncələrinə və inkişaflarına təsir edən əsas fəlsəfi fikirlərin öyrənilməsidir" [5, s. 111].

Təhsildə məqsəd bir deyil, bir neçə maraq dairəsindən baxılaraq təyin edilməlidir. Bəzən bu məsələ qarışdırıldığı üçün təhsilin mahiyyəti itir, bu da birbaşa onun dəyər və faydalılığına mənfi təsir edir. Təhsilin məqsədi dövlət, "təhsilalan" və cəmiyyətin sosial sifarişi ilə üst-üstə düşməlidir. Qeyd olunan bu üçlük fonunda irəli gələn digər məsələlərlə (müasir dövr, texnologiyalar, əmək bazarı və s.) birgə təhsilin məqsədlərini seçmək lazımdır. Əgər bu üçlük nəzərə alınmazsa, təhsil uğurlu ola bilməz və təhsil inkişafa xidmət etməyəcək, fayda verməyəcəkdir.

Təhsil dedikdə, əlbəttə ki, tərbiyə onun ayrılmaz hissəsidir. Xüsusən, təhsilin öhdəlikləri məsələlərində ictimai davranış tərbiyəsi məsələsini xüsusi olaraq qeyd etmək lazımdır. Biz məqsəd seçimi dediyimizdə təkcə tədris materialını deyil, həmçinin cəmiyyət üçün faydalı bir insan yetişdirilməsini məqsədimizə daxil etməli-

yik. Çünki bir insanın cəmiyyət üçün yetişdirilib, formalaşmasının məkanı məhz təhsil ocaqlarıdır və insan ömrünün böyük bir hissəsi, xüsusi ilə formalaşma dövrü məktəb həyatı zamanı keçirir. Buna görə də, burada düzgün məqsəd seçilməsi çox məsuliyyətli və vacib bir məsələdir.

Problemin qoyulma ardıcıllığı ilə ilk olaraq ***dövlət marağı*** mövqeyindən təhsil məqsədinə yanaşmağı düşünürük. Sözsüz ki, cəmiyyətin, icmanın, toplumun özünüifadə və sözün hər mənasında dayanıqlı olmasının strukturlaşdırılmış forması dövlətdir. “Sokrat: -Düşündüyümə görə, bizlərdən hər birimiz öz-özünü təmin edə bilmədikdə və bir çox başqalarına ehtiyac duyduqda dövlət yaranır.” [7, s.89]. Bu baxımdan onun davamlı və dayanıqlı olması vacib bir məsələdir və bunun dayanıqlı olmasının ən mühüm təminatçısı təhsil, təlim və tərbiyədir. Qeyd edilənlərdən də aydın görünür ki, dövlət təhsilin ona faydalı formada xidmət etməsi üçün daim maraqlı olmalı və bu strukturu qorumaq öhdəliyi olmalıdır. Bu yanaşma dövlətin üzərinə təhsilin məqsədini düz formada seçmək, onu qorumaq, dayanıqlığını təmin edərək daim nəzarətdə saxlamaq kimi məsuliyyətləri qoyur. Dövlət uzunmüddətli inkişaf strategiyası müəyyənləşdirməli və zamanın, dünyanın dəyişimi ilə ona fayda verən, onu qoruyan formada öz məqsədlərini davamlı şəkildə müəyyənləşdirməlidir. Əks halda dövlətin özünün inkişafı və özünüqoruması təhlükə ilə üzləşə bilər. “Məlumdur ki, təhsil hər hansı müstəqil dövlətin başlıca atributlarından biridir. Bu atribut cəmiyyətin inkişafında, onu təkamül prosesinə qovuşdurmaq işində müstəsna əhəmiyyətə malikdir. Ona görə ki, insan cəmiyyətinin yaranışını, quruculuq fəaliyyətini, inkişaf istiqamətlərini, formalaşma məzmununu, təkmilləşmə səviyyəsini təhsildən kənarda təsəvvür etmək mümkün deyil.” [8, s.240].

Dövlətin var olması və öz vətəndaşlarına xidmət etməsi üçün onun hər istiqamətdə kadrlarının olması vacibdir. Bunun vacibliyini həm vətəndaşının qayğısına qalması baxımından, həm də öz varlığını qoruması baxımından vacib hesab edə bilərik. Dövləti təşkil edən vətəndaş özünün tələblərinin ödənilməsi üçün buna ehtiyaclıdır. Həmçinin mənəvi dəyərlərə sahib olan vətəndaşın olması, sosial – ictimai münasibətlərdə cəmiyyətin müsbət inkişafına təsir edir ki, bu məsələ də dövlətin marağında olan bir məsələdir. Sağlam düşüncəli cəmiyyət, əlbəttə ki, sağlam bir dövlət və qorunma, dayanıqlılıq vəd edir. Belə bir dövlətdə inkişaf və rifah, sığortalanmış həyat daha möhkəm olacaqdır. Bunların hamısı birlikdə təhsilə bağlı məsələlər olduğu üçün dövlət təhsilə önəmli yer verməyi özü üçün prioritet olaraq seçməlidir. Həmçinin dövlət öz məqsədinə çatmaq üçün hər bir vətəndaşına təhsilin əlçatan və bərabər olmasını təmin etməli və təhsilin dəyərinin dayanıqlığının təminatçısı olmalıdır. Təhsilin dəyəri dedikdə biz əsasən onun təhsilalanlar üçün həm maddi, həm də mənəvi olaraq faydalı olmasını nəzərdə tuturuq. Çünki hər hansı məfhum o zaman dəyərli olur ki, o faydalı olur. Bunun üçün də təhsil cəmiyyətə, təhsilalanlara elə dövlətin özünə də faydalı olmalıdır.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, bir dövlətin varlığı, uğurlu olması onun əhalisinin rifahı və həyat məmnuniyyətindən, onun iqtisadiyyatından, siyasi peşəkarlığından, siyasi gücündən, sağlam cəmiyyətindən, sağlam vətəndaşından, əxlaqi-etik dəyərlərindən, ümumbəşəri dəyər prinsiplərinə sahib insana sahib olmasından asılıdır. Qeyd edilənlər uğurlu, keyfiyyətli təhsillə bağlı olan məsələlər olduğundan, ona görə də dövlətin ən vacib vəzifəsi, məqsədi təhsildir. Bunlara sahib olmaq və dayanıqlı olaraq inkişaf etdirmək düzgün seçilmiş təhsil məqsədi ilə əlaqəlidir. Təhsilsiz bir cəmiyyətin mənfi təsirlərə məruz qalması, yaxud iqtisadi-sosial problemlərlə üzləşməsi qaçılmazdır, sözsüz ki, bu da dövlət üçün təhlükə olmaqla yanaşı, həm də ağır bir yükə çevrilmiş olacaqdır. Bun görə də, hər bir dövlət vətəndaşının təhsilli olmasına maraqlı olmalıdır. Çünki dövlətin vətəndaşı onun üzüdür.

Dövlət maraqları mövqeyindən yanaşanda birinci burada önəm veriləsi məsələ, əlbəttə ki, təhlükəsizlik yanaşması olmalıdır. Dövlətin yaranma səbəblərinə Sokratın yuxarıdakı fikirləri ilə yanaşdıqda bu zaman təhsilin bəlkə də birinci məqsədinin onun təhlükəsizliyini təmin edəcək insan yetişdirməsi istiqaməti əsas olmalıdır. Təhsilin məzmunu həm mənəvi formada ictimai şüur formalaşdırmağa, həm də fiziki olaraq praktik baxımdan dövlətin təhlükəsizliyini qoruya bilən bilik, bacarıq və vərdişlərə sahib cəmiyyət qurmağa köklənməlidir. Bir ifadə ilə qeyd etsək, ümumən, “insan kapitalı” dövlətin əsas maraq dairəsini təşkil etməlidir. “Pedaqoji prosesin strateji məqsədi – milli və ümumbəşəri

dəyərləri gənc nəslə məqsədyönlü, planlı və mütəşəkkil aşılamaq yolu ilə respublikamızın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, dövlət müstəqilliyini qorumağa, ölkəmizi inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar yetişdirməkdən ibarətdir. [4, s.41].

Təhsilin obyektinin təhsilalanlar olduğunu nəzərə alsaq, o zaman təhsilin birbaşa olaraq məqsəd dairəsinin təhsilalanlar olması şübhəsizdir. Təhsilin anlayışının öndə duran məqsədi təhsilalanların təmin olmasına yönəlməli və onların formalaşmasına xidmət etməli, təhsilin məzmunu və funksiyası təhsilalanların tələbinin təmin olunması olmalıdır. Əlbəttə ki, bu kor-korana, kimin necə istəməsindən asılı deyil, burada yuxarıda da qeyd etdiyimiz dövlət, cəmiyyət, dəyərlər və s. kimi məsələlər nəzərə alınaraq icra edilməlidir. Yuxarıdakı ardıcıllığa əsasən, ***təhsilalanların tələbi*** məsələsinə nəzər yetirək; belə ki, təhsilalanlar deyərkən burada məktəb şagirdindən tutmuş, ali təhsil tələbəsi və ömürboyu təhsil benifisarları da daxil edilir. Cəmiyyətdə, ümumiyyətlə, həyatda insanın öz mövqeyini tutmaq üçün, onun savad meyarlarının hər hansı bir pilləsinə sahib olması mütləqdir. Düşünürük ki, bu məsələyə bir qədər geniş formada yanaşmağımız məqsədəuyğun olacaqdır. Nəzərə almaq lazımdır ki, tarixin keçmiş qatlarından bu yana insanın müəyyən bacarıqlara sahib olması zamanla cəmiyyət üçün vacib bir məsələyə çevrilmişdir. Çünki dəyişən, inkişaf edən cəmiyyət öz varlığını qorumaq üçün daha çox və daha mürəkkəb biliklərə sahib olmaq ehtiyacında olmuş və əldə edilən bilik, bacarıq və vərdişlər üçbucağı sözsüz ki, cəmiyyətin özünün varlığını qoruması üçün gələcək nəslə ötürülməli idi. Bu ötürülmə əlbəttə ki, təlim, təhisl yolu ilə mövcud ola bilərdi. Demək, təhsilin önəmli məqsədlərindən biri də bir insanın özünü cəmiyyətdə tapa bilməsi üçün ona biliklər verməsi və bu bilikləri bacarıqlara çevirməsi, həmçinin bunların fonunda yeni vərdişlər qazandırmasıdır. Bununla bərabər olaraq bildirmək lazımdır ki, zamanla əlaqəli olduğundan təhsilin təhsilalanlar üçün təşkili heç də eyni xətt üzrə davam etməmişdir, əlbəttə ki, müəyyən siyasi, iqtisadi quruluş və formalar təhsilin insanlara çatmasında müxtəlif mövqelər tutmuş və formalar təşkil etmişdir. Buna baxmayaraq, təhsil həmişə öz fəlsəfəsini – insanın cəmiyyətdə yaşaması üçün bilik, bacarıq və vərdişlər vermək xüsusiyyətini saxlamışdır. Məlum bir haldır ki, cəmiyyətin intellekt səviyyəsi aşağı olarsa, cəmiyyət inkişaf edə bilməz, onun dayanıqlı olması belə sual altında olmuş olacaq və daim mənfi təsirlərə məruz qalmış hala düşəcəkdir. Biz bunu təhsili zəif olan cəmiyyətlərin, dövlətlərin timsalında nümunə olaraq görə bilərik.

Yenidən təhsilin təhsilalanlar üçün dəyəri məsələsinə qayıtmaq istərdik. Təhsilin digər bir dəyəri də onun faydalı olmasıdır. Təhsil təkcə nəzəriyyələri əzbərləməklə faydalı ola bilməz, onun bacarıqlara çevrilməsi və əmək bazarında təhsilalanlar üçün fayda gətirməsi vacib bir məsələdir. Bununla yanaşı, təhsilin praktiki icrası üçün mühit, şərait mövcud olmalıdır ki, onun mənimsənilməsi rahat formada mümkün olsun. Əvvəl də dediyimiz kimi, dəyər o zaman yaranır ki, o fayda gətirsin. Təhsil təhsilalanlarının əmək bazarına hazırlanmasında vacib bir haldır. Həmçinin həyatı dərk etmək, həyati bacarıqları əldə etmək təhsilin məqsədinə çevrilməlidir.

Təhsilin məqsədinin təhsilalanlar üçün digər önəmli bir əhəmiyyəti onun insanın estetik zövqünün təmin etməsi olmalıdır. İnsan təkcə bacarıqlara sahib və əmək bazarına hazırlanan bir robot deyil, o həm də psixoloji bir varlıqdır. Onu insan edən həm də estetik zövqə sahib olmasıdır. İnsanın həyata baxışı, həyatdan zövq ala bilməsi, yaradıcılıq qabiliyyətinə sahib olması və bu kimi potensiallarının üzə çıxarılması, eləcə də reallaşdırlmasına yardım etmək kimi məsələlər təhsilin məqsədinə daxil edilməlidir.

Bir insanın cəmiyyətdə özünü ifadəsi, yanaşması, danışıq tərzi belə təhsilin məqsədi olmalıdır. Estetik tərbiyə fərdin mənəvi keyfiyyətlərini yüksəldir, cəmiyyət üçün yararlı üzvə çevirir. Estetik tərbiyə təhsilalanların intellekt səviyyəsinə müsbət təsir edən, həmçinin humanizm, əxlaqi və digər prinsipləri cəmiyyətdə inkişaf etdirmək üçün önəmli amildir. “Estetik tərbiyə yalnız fərdi inkişaf üçün deyil, həm də daha harmonik bir cəmiyyətin qurulması üçün vacibdir.” [10.].

Fikrimizcə, estetik tərbiyənin özü də təhsilin dəyərli olması üçün əsasdır. Çünki estetik tərbiyə insanın həyatda zövq almasını təmin edirsə, əlbəttə ki, bu bir faydalılıq yaratmış olur və qeyd etdiyimiz kimi, faydalı olan dəyərdir və dəyər yaradır. Bu yanaşma ilə fiziki tərbiyəni də bura aid etmək düzgün olardı. Fiziki cəhətdən

sağlam bir insan həm cəmiyyət, həm dövlət, həm də fərdin özü üçün faydalıdır.

Növbəti baxış kimi təhsilin məqsədi məsələsinə ***cəmiyyət*** formasında yanaşma edək. Belə ki, hər bir cəmiyyətin formalaşması və özünü inkişaf etdirməsi üçün, həmçinin bu qeyd edilənlərlə bərabər, cəmiyyətin etiq-əxlaqi dəyərlərinin qorunub-saxlanılması və dayanıqlı sağlam bir cəmiyyətin olmasından ötrü təhsilin əsas məqsədi fərdin cəmiyyət üçün yetişdirilməsi olmalıdır. Bu məsələ də təhsilin məzmunundan tutmuş, onun metoduna qədər olan hissələrində işlənilib hazırlanmalı və həyata keçirilməlidir.

Fikrimizcə, cəmiyyətlə münasibətdə təhsilin rolunu sıx bir formada qarşılıqlı əlaqədə olaraq nəzərə almaq daha məqsədəuyğundir. Çünki cəmiyyət özü insanın formalaşmasında önəmli rol oynayır və cəmiyyətin formalaşmasında, onun sağlam olmasında önəmli faktor təhsildir. "Təhsil cəmiyyətin bütün təhsil müəssisələrinin şəxsiyyətinə məqsədyönlü təsirlərdən, sosial-mədəni mühitin təsirindən və şəxsiyyətin özünün bu prosesin fəal subyekti kimi iştirakından ibarət sosial, sosial-mədəni prosesdir. Ətraf mühit insan cəmiyyətinin inkişafı və fəaliyyə tinin baş verdiyi təbii və sosial şəraitin məcmusu kimi şəxsiyyətə münasibətdə onun formalaşması və inkişafı üçün zəruri şərt kimi çıxış edir." [6, s.430].

Hər bir cəmiyyət zamanın axarında özünü qorumaq, inkişaf etdirmək və gələcək nəslə sağlam cəmiyyət ötürmək məsuliyyətini daşıyır və daşımalıdır. Cəmiyyətin sağlam və dayanıqlı olması, sağlam düşüncəyə sahib formalaşması, heç şübhəsiz, təhsildən, təlimdən və tərbiyədən asılıdır. Təhsil bu öhdəliyi öz üzərində etməli və buna uyğun özünü formalaşdırmalıdır. Burada önəmli məsələ yenə də sosial sifariş məsələsinə qayıdır. Maraqlı səslənsə də, bunu sanki **"bumeranq"** olaraq düşünməyimiz daha məqsədəuyğundur. Belə ki, cəmiyyətin təhsilə düzgün sosial sifariş verməsi önəmlidir. Təhsil bu sifarişi öz üzərindən qurmalı və yenidən cəmiyyətin düzgün formalaşmasına xidmət etməlidir. Bu zaman belə bir sual yarana bilər: "Bəs cəmiyyət, həqiqətən, düzgün formada sosial sifarişi necə formalaşdırmalıdır?" Bu artıq çox ciddi, üzərində düşünüləsi bir məsələdir. Burada bir çox prinsiplər rol oynayır; düzgün formalaşdırılmış ənənə prinsipləri, ağsaqqallar institutu, dəyərlər, sosial institutlar, elmi-mədəni mərkəzlər, KİV, yazıçılar, ziyalılar, eləcə də dövlət marağı və s. Demək, təhsilin məqsədi sağlam cəmiyyət qurmaq olmalıdır ki, bunun sayəsində inkişaf və dəyərlər formalaşsın, həmçinin maddi-iqtisadi, mənəvi-estetik faydalılıq artsın, digər tərəfdən də sosial məsələlər cəmiyyət üçün uğurlu olsun.

**Metodika**

Metodikadan danışmazdan əvvəl ilk olaraq metodika sözünün verdiyi mənanı dəqiqləşdirək. Bu fikrimizi daha dəqiq və aydın ifadə etməyə kömək etmiş olacaqdır. Metodika pedaqoji ədəbiyyatda müxtəlif cür izah edilsə də, mahiyyət etibarilə "Metodika sözü qədim yunan sözü olub, – tədqiqat yolu‖, – dərketmə qabiliyyəti‖ mənalarını verir." [2, s.8].

Təhsildə metod tədris materialının, eləcə də tərbiyənin təhsilalanlara müxtəlif yol və üsüllarla çatdırılması sistemi kimi başa düşülə bilər. Bu metodları öyrənən, araşdıran elm sahəsi isə metodikadır. Həmçinin daha geniş çərçivədə təhsil məqsədinin təhsilalanlara çatdırlma yolu kimi də anlaşıla bilər. Bununla bərabər, xırdalıqla yanaşdıqda, daha dar çərçivədən baxılan zaman hər hansı bir fənnin tədrisi, yaxud, tədris olunan fənnin sinifdə çatdırılması üsulu kimi də qəbul etmək məqsədəmüvafiqdir. "Təhsildə "metodika" dedikdə, müxtəlif tədris proseslərində tətbiq edilən konkret üsulların, qaydaların, pedaqoji fəaliyyət texnikasının təsviri; "tərbiyə fəaliyyətinin qaydalar toplusu "nəzərdə tutulur" [11].

Təhsil, əlbəttə ki, çərçivəyə, ölçüyə salınmış, standartları müəyyən edilmiş, məzmunu formalaşdırılmış bir məfhumdur. Tarixinənginlilərindən insan övladının əldə etdiyi biliklər, bacarıqlar metodlarla vərdiş halına gətirilib tədris prosesi zamanı təhsilalanlara ötürülür. Sözsüz ki, bu qeyd edilən məsələlər onu ***süni*** bir formaya gətirmiş olur. Bu da təhsilalanlar üçün öyrənmə prosesinin ağır bir bir proses olmasına gətirib çıxarır. Ona görə də metodikanın üzərinə çox böyük bir yük, məsuliyyət düşür. Təsəvvür etmək heç də çətin deyil ki, min illiklər ərzində əldə edilən tədris yükü, həyati bacarıqlar bəlli bir zaman kəsimində təhsilalanlara çatdırılması nə qədər çətin bir məsələdir. Bu baxımdan təhsilin təşkili zamanı mümkün qədər müstəqilliyin verilməsi, sərbəst mühitin yaradılması və metodlar çoxluğundan istifadə bu yükü, ağırlığı azaltmış olacaqdır. Bu formalı yanaşmanı biz keçmiş tarixdə də görə bilirik. Misal üçün Aristotelin liseyini, "Bu məktəbə, eyni zamanda

Qərbdə "peripatetiklər məktəbi", Yaxın Şərqdə isə "məşayiə" demişlər ki, bu da "peripatos" kimi, eyni ilə "səyahət", "gəzinti" mənasını ifadə edir. Aristotel adətən Likey bağındakı xiyabanda gəzinti zamanı öz fəlsəfi müddəalarını şagirdlərinə şərh edərmiş" s.6 [1, s.6]. Platonun akademiyasını, yaxud Sokratın yanaşmasını (sorğu metodu) qeyd etmək olar. "Əslində Akademiyada (Platon Akademiyası. Müəllif) dərs deyilmir və ya dərs üsulu, yəqin ki, az yer tuturdu, əsas üsul ortaya məsələ, problem qoyub onu həll etməyə çalışmaq və dialoq idi (Sokrat metodu)." [9.]. Müasir dövrümüzdə inkişaf edən cəmiyyət, sosial münasibətlər, əmək bazarına daima yeni peşələrin daxil olması, yaxud digər Təhsilin tədris edilməsinin sadələşdirilməsinin yollarının, mexanizmlərinin formalaşdırılması daim düşünülməli və təcrübədən keçirilərək istehsalata onu yükləmədən tətbiq edilməlidir.

Təhsildə metod tədris materialının, eləcə də tərbiyənin təhsilalanlara müxtəlif yol və üsullarla çatdırılması sistemi kimi başa düşülə bilər. Peşələrin funksiyalarının azalması, sürətlə dəyişməsi, yeni peşələrin yaranması təhsil texnologiyalarından, metodlarından da yenilənməyi tələb edir. Texnologiyanın, cəmiyyətin sürətlə inkişafı, dəyişimi ilə əlaqəli olaraq artıq fərqli bir təfəkkürə sahib olan təhsilalan formalaşır ki, metod, üsul baxımından onun tələbləri artmış olur və bu da fərqli-fərqli metodlarla dərsin təşkilinə tələbat yaradır. Texnologiya ilə bərabər yeni psixoloji davranışa sahib olan təhsilalanlar standartlaşmış metod və üsullarla deyil, daha fərqli, metodlar çoxluğu, yaxud metodlar kombinasiyası ilə tədrisin təşkilinə maraqlıdırlar. Artıq dünyada formalaşmış yeni yanaşmalar, davranışlar fonunda bunun tədrisdə nəzərə alınması mütləq bir hala çevrilmişdir. Bunun üçün ilk növbədə təhsil ocaqlarına müəyyən çərçivədə, xüsusən, təhsil texnologiyalarının tətbiqində, metodların icrasında sərbəstlik verilməli və məktəbin öz "yolunu" seçməsinə dəstək olunmalıdır. Əlbəttə ki, bu məsələ "hər kəsin öz istəyinə görə" düşüncəsi ilə deyil, tərtib edilmiş müəyyən üst standartlar əsasında qurulmalıdır. Lakin məktəbin, hətta deyərdik ki, hər bir təhsilverənin öz müstəqil seçimlərinə imkan yaradılmalıdır. Bunun təşkili üçün əsas olaraq məktəblərdə, yaxud digər formalarda müəyyən metodik birliklər yaradılmalı, davamlı müzakirələr edilməli və məktəb özünüidarə orqanları tərəfindən müzakirə edilərək icrasına qərar verilməlidir. Verilən sərbəstlik, metodlar çoxluğundan sərbəst istifadə etmək imkanları təhsilin tədrisinin təbii bir prosesə çevrilməsinə imkan yaratmış olacaqdır. Təhsilin təbii bir prosesə çəvriləməsinə də yuxarıda dediyimiz kimi çox böyük ehtiyac vardır. Çünki belə olduqda təhsil daha faydalı olmuş olar. Burada önəmli məsələ təhsilalanların bilik, bacarıq və vərdişlərə sahib olmasının təmin edilməsi və öncə də qeyd etdiyimiz kimi, təhsil məqsədlərinə nail olunmasının təmin edilməsidir. Təhsilin təşkil edilməsinin ilk pillələrində duran məsələlərdən biri də metodika olduğundan düşünür ki, müəyyən məqamlarda sərbəstliyin verilməsi məqsədlərə çatmağa kömək etmiş olacaqdır. Əks təqdirdə tədris prosesinin ağırlığı, qeyri-təbiiliyi və fayda gətirə bilməməzliyindən təhsilin qarşısında duran hədəflərinə, məqsədlərə nail olmaq çətin olacaqdır. "Hazırda müasir məktəb şəraitində tədris metodları təhsilin məqsədlərindəki dəyişiliklər, sistem-fəaliyyət yanaşmasına əsaslanan yeni nəsil Təhsil Standartlarının tətbiqi ilə əlaqəli bir dövrdən keçir. Bütün bu hallar tədris metodları sahəsində yeni pedaqoji tədqiqatların aparılmasını, müasir tədris və informasiya texnologiyalarının işlənib hazırlanması və tədris prosesində tətbiqi ilə bağlı təlim və tərbiyənin innovativ vasitələri, forma və metodlarının axtarışını tələb edir." [3, s.273].

Əgər bir məkanda iş, hal, hərəkət varsa, orada prosesin baş verdiyini demək olar. Bu zaman deyə bilərik ki, proses varsa, orada metod, yanaşma da mövcuddur. Belə yanaşmaya əsasən deyə bilərik ki, metodika təkcə bizə məktəb mühitində deyil, həmçinin məktəbdənkənar və sinifdənxaric işlərin icrası zamanı da vacib hal olaraq lazımdır. Bu yanaşma istər distant, onlayn təhsil, yaxud evdə təhsilin müxtəlif formalarının icrası zamanı da mühüm alət olaraq gərəklidir. Yekun olaraq bildirmək istərdik ki, təhsilin metodikasını tışkil edən metod və üsullar, yanaşmalar çoxlu sayda mövcuddur və bəlkə də hər anın özünü idarə etmək üçün müəyyən bir yanaşmaya, metoda ehtiyac vardır və bu ehtiyac da metodlar çoxluğunun mövcud olmasına səbəb olmuş olur. Bunlardan düzgün istifadə və bu metodlar çoxluğuna çıxış imkanının olması təhsil üçün fayda gətirəcəkdir.

**Nəticə.** Nəticə olaraq qeyd etmək istərdik ki, təhsilin məqsədinin təyin edilməsi düzgün is-

tiqamət və təhsilin keyfiyyətli olması üçün önəmlidir. Həmçinin burada təkcə məqsədlər barədə məlumat vermək yox, onları kateqoriyalaşdırmaq da vacibdir. Çünki ardıcıllıq və istiqamətin düzgün götürülməsi üçün məqsədlərin kateqoriyalara bölünməsi daha faydalıdır. Digər bir məsələ isə metodlar məsələsidir ki, metodlar üzərində tədqiqat işi aparılarkən nəticə olaraq aydınlaşmışdır ki, təhsildə metodlar çoxluğu və dərsin idarə edilməsində müəyyən sərbəstliyin verilməsi dərsin keyfiyyətini artırır və tədrisin təşkilində müsbət təsir qoyur.

**Problemin aktuallığı.** Məlum bir haldır ki, müasir təhsildə artıq o qədər mürəkkəblik və yanaşmalar vardır ki, təhsilin məqsədinin düzgü olaraq təyin edilməsi çox vacib və bir o qədər də əhəmiyyətlidir. Çünki burada önəmli bir məsələ mürəkkəbləşmiş təhsil prosesi zamanı faydalılıq, dəyərlər, təhsilin aktuallığının qorunması kimi məsələlər önə çıxır. Bu baxımdan təhsilin məqsədinin dəqiq olaraq müəyyənləşdirilməsi olmadan təhsilin dəyəri, həmçinin faydası olmayacaqdır. B baxımdan mövzu olduqca aktualdır və təhsil prosesinin təşkili üçün nəzərə alınması vacibdir.

**Problemin yeniliyi.** Mövzuda təhsilin məqsədlərin daha fərqli üç baxımdan tədqiqi icra edilmişdir ki, bu yanaşmalar mövzunun elmi yeniliyi baxımından qeyd edilə bilər. Bu qeyd edilən yeni baxış təhsilin dəqiq yönləndirilməsi üçün çox əhəmiyyətli hesab edilə bilər. Bununla yanaşı, metodlar çoxluğu məsələsi önə çəkilmiş və metodlardan istifadə sərbəstliyinin təhsil prosesində istifadə edilməsi məsələsi önə çəkilmişdir. Həmçinin təhsilin suni prosesdən, təbii bir prosesə doğru yönlədirilməsi və onun bu zaman daha faydalı ola biləcəyi fikir irəli sürülmüşdür ki, bu düşüncə də elmi yenilik kimi qiymətləndirilə bilər.

Təhsil insan həyatının inkişafını təmin edən bir məfhumdursa, təhsili önəmli, faydalı və uğurlu edən onun məqsədidir. Sözsüz ki, bu məsələ çox ciddi və diqqət tələb edən bir məsələdir. Çünki təhsilə maraq və təhsili faydalı edən ilkin olaraq onun məqsədinin düzgün seçilməsidir. Yəni "Təhsil bizə niyə lazımdır?" sualını ciddi şəkildə sorğulayıb, təhlil edib bundan sonra hədəfləri müəyyən edərək ona doğru addımlamaq üçün metodlar seçmək lazımdır.

**Problemin praktiki əhəmiyyəti.** Məqalə təhsilə yeni baxış və çağırışlar üçün açar rolunu oynaya bilər və bu tədrisini yeni düşüncə olaraq qurulması yolunda praktik ideya kimi faydalı olacaqdır. Belə ki, məqalədə məqsədlər məsələsi bu istiqamətdə araşdırma edən, həmçinin yeni baxış tətbiq etmək istəyən təhsilverənlər üçün praktiki vəsait kimi faydalı olacaqdır. Həmçinin təhsildə metodika istiqamətində həm araşdırma etmək istəyən, həmçinin sinfin təşşkil edilməsi zamanı yeni ideyalar tətbiq etmək istəyənlər üçün əhəmiyyətlidir. Bununla bağlı təhsildə təbiiliyi təmin etmək istəyənlər üçün ideoloji və motivasiya baxımından bir yazı kimi qiymətləndirilə bilər.

## Ədəbiyyat


1. Aristotel. Poetika:/ Aristotel. – Bakı: Şərq-Qərb,– 2006. –120 s.
2. Əmirov, M.M. Tam orta məktəbdə tarixin fəal interaktiv təlimi metodikası: / M.M.Əmirov. –Bakı: Yeni nəşr, –2011. –707 s.
3. İsmayılova, T. M. Coğrafiyanın Tədrisi Metodikası // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri, –2023. Cild 90/№6, – s.272-275
4. Kazımov, N. M. Məktəb Pedaqogikası: Dərslik / N.M. Kazımov. – Bakı, Çıraq nəşriyyatı, – 2011. – 440 s.
5. Məmmədov, R.İ. Təhsildə Stratejli Planlaşdırma və İdarəetmə / R.İ. Məmmədov. –Bakı: Elm və Təhsil nəşriyyatı, –2023. –186 s.
6. Məmmədzadə, X.X. Şəxsiyyətin formalaşmasında ətraf mühit və təhsilin rolu // –Bakı: Qızlar Universiteti Elmi əsərlər, –2022. Cild 13/ №2 (50), – s.430-432
